BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2012*

UOT 343.61

# MÜTƏŞƏKKİL DƏSTƏ TƏRƏFİNDƏN HƏYAT VƏ SAĞLAMLIQ ƏLEYHİNƏ TÖRƏDİLƏN CİNAYƏTLƏRİN TÖVSİFİ MƏSƏLƏLƏRİ

**N.K.ƏLİYEV**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***nazim–aliyev@mail.ru***

*Məqalədə mütəşəkkil dəstə tərəfindən həyat və sağlamlıq əleyhinə törədilən cinayətlərin hüquqi təhlili aparılır, obyektiv və subyektiv əlamətləri müəyyən edilir. Məhkəmə təcrübəsinin materialları əsasında qeyd olunan cinayət tərkiblərinin tövsifi zamanı yol verilən səhvlər, yaranan çətinliklər aşkar edilir, qanunvericiliyin təkmilləşdirilməsinə yönələn təkliflər irəli sürülür.*

**Açar sözlər**: mütəşəkkil dəstə, qabaqcadan əlbir olan bir qrup şəxs, qəsdən adam öldürmə, tövsifedici əlamət, cinayətin tövsifi

Mütəşəkkil dəstə tərəfindən həyat və sağlamlıq əleyhinə törədilən cinayətlərin hüquqi təhlili üçün ilk olaraq Azərbaycan Respublikasının qüvvədə olan CM-nin 34.3-cü maddəsində iştirakçılığın mütəşəkkil dəstə formasına verilmiş anlayışına müraciət etməyimiz lazımdır. Həmin maddəyə əsasən bir və bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət olan sabit cinayətkar qrup tərəfindən törədilən cinayət mütəşəkkil dəstə tərəfindən törədilmiş cinayət hesab olunur.

1960-cı il CM-nin qüvvədə olduğu dövrdə Azərbaycan Respublikasının məhkəmə təcrübəsində mütəşəkkil dəstə tərəfindən törədilən cinayətlərin tövsifində çətinliklər olduğundan, Azərbaycan Respublikası Konstitusiya məhkəməsi sorğu əsasında 20 aprel 1999-cu il tarixdə «mütəşəkkil dəstə» anlayışını izah edən qərar qəbul etmişdir. Qərarda göstərilmişdir ki, mütəşəkkil dəstə dedikdə, bir və ya bir neçə cinayətin törədilməsi üçün əvvəlcədən birləşmiş iki və yaxud daha çox şəxsdən ibarət olan möhkəm cinayətkar qrup başa düşülməlidir. Mütəşəkkil dəstənin möhkəmliyini onun tərkibinin və təşkilati qurumlarının sabitliyi, üzvlərinin birliyi (sıxlığı), cinayətkar fəaliyyətin forma və üsullarının daimiliyi xarakterizə edir. Mütəşəkkil dəstənin başqa cinayətkar qruplardan fərqləndirilməsi üçün istifadə edilə biləcək əsas xüsusiyyətlər

aşağıdakılardır: dəstədə təşkilatçı və ya başçının irəli sürülməsi və ciddi intizamın gözlənilməsi; cinayət niyyətlərinin ümumiliyi; cinayətin törədilmə planının işlənib hazırlanması və bunun üçün mükəmməl hazırlıq görülməsi; cinayətin törədilməsində rolların bölüşdürülməsi; cinayətin törədilmə üsulunun qabaqcadan müəyyənləşdirilməsi; cinayətin törədilməsi üçün mürəkkəb üsullardan istifadə olunmasının mümkünlüyü; hazırlanmış plana uyğun olaraq cinayətin törədilməsi üçün hərəkətlərin razılaşdırılması; cinayət yolu ilə əldə edilmiş mənfəətlərin qrupun strukturlarında olan mövqelərə uyğun bölüşdürülməsi (8, 52).

F.Y.Səməndərov həmin qərarla əlaqədar göstərmişdir ki, Konstitusiya Məhkəməsinin verdiyi izahda iştirakçılığın bu formasının vacib spesifik əlaməti olan «sabit dəstə» əlamətinə kifayət qədər aydınlıq gətirilməmiş, mütəşəkkil dəstənin cinayət hüquqi anlayışından daha çox kriminoloji anlayışına diqqət yetirilmişdir (11, 387). Müəllifə görə mütəşəkkil dəstənin «sabit dəstə» əlaməti ölçüyə gələn meyar əsasında izah edilməlidir. Dəstənin «sabitliyi» onun tərkibinə daxil olan üzvlərin kriminal fəaliyyətdə müntəzəm iştirakı ilə izah edilməlidir, yəni müntəzəm kriminal fəaliyyətdə dəstə üzvlərinin tərkibi əsasən dəyişmir. «Müntəzəmlik» cinayət hüquqi kateqoriyadır və dəstənin üç dəfə və ya daha artıq sayda cinayət törətməsini nəzərdə tutur. Dəstənin «sabitliyini» izah edən müntəzəm cinayət fəaliyyəti dəstənin hər bir üzvünün fəaliyyətində müəyyən səmtləşmənin, zərərli yönəlişin baş verdiyini, onlarda cəmiyyətə zidd vərdişlərin yarandığını göstərir (9, 77). Fikrimizcə, həm mütəşəkkil dəstədə, həm də cinayətkar birlikdə sabitlik əlaməti cinayətlərin müntəzəm törədilməsi faktına əsaslanır, lakin burada subyektiv moment, yəni cinayətlərin müntəzəmliliyinə istəyin, cəhdin olması üstün rola malikdir.

Mütəşəkkil dəstənin qanunvericilik anlayışı əsasında onun aşağıdakı əlamətlərini müəyyən etmək olar: 1) iki və daha çox şəxsin mövcudluğu; 2) sabitlik; 3) iştirakçıların qabaqcadan birləşmiş olması; 4) bir və ya bir neçə cinayətin törədilməsi məqsədinin olması.

Birinci əlamət üzrə mübahisə etmək lazım gəlmir, çünki mütəşəkkil dəstə də cinayətkar qrupların bir növü sayılır. Bu səbəbdən həmin əlamət spesifik deyildir, iştirakçılığın bütün formaları üçün ümumi əlamətdir. Üçüncü əlamət də təkcə mütəşəkkil dəstə üçün xarakterik deyildir. Sabitlik əlaməti ilə bir neçə cinayətin törədilməsi əlaməti qarşılıqlı əlaqəli olduğundan, qeyd olunan ikinci və dördüncü əlamət mahiyyət etibarı ilə bir-birini təkrar edir. Qüvvədə olan cinayət qanunu sabitlik əlamətini iştirakçılığın mütəşəkkil dəstə forması ilə yanaşı həmçinin cinayətkar birlik formasına aid etmişdir. «Sabitlik» sözü sabit şeyin hal və vəziyyəti, daimilik, dəyişməzlik mənalarını ifadə edir (3, 7). Hüquq ədəbiyyatında belə fikrə rast gəlinir ki, sabitlik və mütəşəkkillik ifadələri müəyyən mənada bir-birini təkrarlayır, eyni hadisəni ehtiva edir, sadəcə terminoloji rəsmiləşdirmələri fərqlidir. Məsələn, T.V.Şutelova sabitlik ilə mütəşəkkilliyin qarşılıqlı əlaqəsinə bir medalın iki tərəfi kimi baxmışdır (15, 10).

«Mütəşəkkil» sözü isə təşkil olunmuş, ciddi nizam-intizama tabe mənalarını ifadə edir (2, 439). Mütəşəkkillik ifadəsi altında adətən hadisələrin daxili nizamlılığı, elementlərin qarşılıqlı əlaqəsinin sistemi başa düşülür. İştirakçılıq sistem olaraq iştirakçıların (icraçıların, təşkilatçıların, təhrikçilərin, köməkçilərin) hərəkətlərindən, onların funksional və subyektiv əlaqələrindən ibarətdir. Mütəşəkkilliyin səviyyəsi məcmu halda məhz bu əlaqələrdən ibarətdir. Mütəşəkkilliyin müəyyən edilməsi üçün iştirakçıların funksiyalarını, onların qarşılıqlı əlaqəsini, subyektiv əlaqələrin daimiliyinin səviyyəsini müəyyən etmək tələb olunur: qarşılıqlı əlaqə nə qədər mürəkkəbdirsə, cinayətkar qrupların sosial institutlara çıxışı nə qədər genişdirsə, iştirakçılığın mütəşəkkilliyi bir o qədər yüksək olur, o cümlədən, əksinə.

Mütəşəkkilliyin səviyyəsinə bir neçə nöqteyi-nəzərdən baxıla bilər. İlk növbədə onu cinayətin törədilməsinə razılaşmanın əldə olunduğu vaxt xarakterizə edir. Cinayətin törədilmə vaxtı ilə onun törədilməsinə dair razılığın əldə olunduğu vaxt arasında məsafə nə qədər böyük olursa, onun törədilməsinin səmərəli üsul və vasitələrinin tapılması bir o qədər real, hər bir iştirakçının fəaliyyəti bir o qədər fəal, bütün iştirakçıların birgə fəaliyyəti bir o qədər mütəşəkkil olur. Lakin bu o demək deyildir ki, qabaqcadan əlbirliyin olduğu iştirakçılıq belə əlbirliyin olmadığı iştirakçılıqdan həmişə daha təhlükəlidir. Sonuncuda da birgə fəaliyyətin təhlükəliliyinə təsir edən özünəməxsus xüsusiyyətlər vardır. Əgər əvvəlcədən əlbirlikdə iştirakçılar cinayətkar nəticəyə nail olmaq üçün daha optimal üsullar axtarırlarsa, əvvəlcədən əlbirlik olmadıqda isə şəxslər cinayətin törədilməsinin üsul və vasitələrini dərindən fikirləşmək üçün vaxtları olmadığından müəyyən olunmuş çərçivədən real kənara çıxan və bununla da cinayəti daha təhlükəli edən kortəbii hərəkətlər edə bilirlər. Ona görə də bəzi hallarda əvvəlcədən əlbirliyi olmayan birgə fəaliyyət nəticəsində törədilən cinayətlərin əvvəlcədən əlbirlik əsasında törədilən cinayətlərdən daha təhlükəli olacağını istisna etmək olmaz. Lakin belə hallar istisna hallardır.

A.P.Kozlov mütəşəkkil dəstəyə belə anlayış vermişdir: mütəşəkkil dəstə dedikdə, iştirakçıların bütün fəaliyyətinin mükəmməl planlaşdırılması, rolların dəqiq bölgüsü, iştirakçılar tərəfindən cinayətin törədilməsində məkan və zaman ümumiliyinin olmaması, iştirakçıların mütəşəkkilliyinin yüksək səviyyəsini müəyyən edən zəruri, optimal miqdarda seçilməsi ilə xarakterizə olunan qabaqcadan birləşmiş şəxslərdən ibarət olan cinayətkar dəstə başa düşülür. O, bu anlayış əsasında mütəşəkkil dəstənin aşağıdakı əlamətlərini fərqləndirmişdir: 1) cinayətkar qrupun kortəbii deyil, plan əsasında yaranması; 2) cinayətkar dəstədə şəxslərin dairəsinin cinayətin törədilməsi üçün zəruri olan həddi ilə ciddi məhdudlaşdırılması; 3) cinayətin törədilmə yerini və vaxtını, qəsdin obyektini və predmetini, cinayətin törədilməsindən sonra vaxtında qaçıb gizlənmənin yollarını, yerlərini və sairəni dəqiq nəzərdə tutan mükəmməl planlaşdırmanın mövcud olması; 4) iştirakçıların cinayətə qədər, cinayətin icrası zamanı və cinayətin törədilməsindən sonrakı funksiyalarında qabaqcadan

dəqiq bölgünün mövcudluğu, iştirakçıların öz təşəbbüsləri ilə qabaqcadan razılaşdırılmış funksiyalardan kənara çıxmağa ixtiyarlarının olmaması; 5) ciddi intizamın olması; 6) iştirakçıların hərəkətlərində məkan və zaman ümumiliyinin olmaması; 7) iştirakçıların qəsd və əlbirliyinin ümumi cinayətin törədilməsinə yönəlməsi (12, 280-281).

Biz bu əlamətlər ilə ümumən razıyıq. Bununla belə, üçüncü və dördüncü əlamətlərdə kifayət qədər qəti tələblərin müəyyən edildiyini (planlaşdırmanın mütləq mükəmməlliyi, iştirakçıların öz təşəbbüsləri ilə qabaqcadan razılaşdırılmış funksiyalardan kənara çıxmağa ixtiyarlarının olmaması) zənn edirik. Biz razılaşırıq ki, mütəşəkkil dəstədə həyata keçirilməsi kortəbii olmayan, əksinə, kifayət qədər yaxşı təşkil olunan cinayətlə rastlaşırıq. Lakin bir qrup şəxs və qabaqcadan əlbir olan bir qrup şəxs formalarında olduğu kimi burada da hələ sabitlik əlaməti mövcud olmur, obyektiv olaraq cinayətlərin müntəzəm törədilməsi olsa da, iştirakçılar arasında subyektiv əlaqələrin sabitliyi mövcud olmur.

Hesab edirik ki, mütəşəkkil dəstənin qanunvericilik anlayışında onun bir cinayətin törədilməsi üçün də mümkün ola bilməsi tamamilə düzgün olaraq müəyyən olunmuşdur. Lakin məhkəmə-istintaq təcrübəsində bu sahədə bəzən səhvlərə yol verilir. Misal gətirək. Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin 23 yanvar 2007-ci il tarixli hökmü Əliyev Murad Əhədulla oğlu Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.7, 29, 120.2.7 və 228.2.1-ci maddələri ilə təqsirli bilinərək, CM-nin 120.2.1 və 120.2.7-ci maddələri ilə 12 il müddətinə, CM-nin 29, 120.2.7-ci maddəsi ilə 11 il 3 ay müddətinə, CM-nin 228.2.1-ci maddəsi ilə 3 il müddətinə azadlıqdan məhrum etmə cəzalarına məhkum edilmiş, CM-nin 66.3-cü maddəsinə əsasən ona təyin edilmiş cəzalar qismən toplanılmaq yolu ilə üzərində qəti olaraq 13 il müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır.

M.Ə.Əliyev ona görə məhkum edilmişdir ki, o, Astara rayonu Ərçivan kəndində qardaşı Mahmud Əliyevə məxsus evin 31 dekabr 2003-cü il tarixdə həmkəndlisi Şahverdiyev Asəf Şahverdi oğlunun sifarişi ilə düşmənçilik zəminində partladıldığını müəyyən edərək, buna görə Məmmədov Etibar İzzətulla oğlu, Məmmədov Ceyhun İzzətulla oğlu, Məmmədov Anar Mirzəhüseyn oğlu və Əliyev Amid Güldadaş oğlu ilə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək Etibar Məmmədovun başçılığı ilə qrupda birləşməklə 07 fevral 2004-cü il tarixdə saat 11 radələrində Asəf Şahverdiyevi Ərçivan kəndinin kənarındakı «Gəyəndaz» adlanan əraziyə çağırmış və istintaqa məlum olmayan mənbədən qanunsuz əldə edib saxladıqları və gəzdirdikləri bir ədəd yivli odlu silah olan «Makarov» markalı NL 3616 №-li tapança və üç ədəd «Vinçester» markalı ov tüfəngi ilə silahlanaraq, Etibar Məmmədov, Ceyhun Məmmədov, Anar Məmmədov və Amid Əliyevlə birlikdə VAZ–2105 markalı 07 VV 684, VAZ-21015 markalı 10 KV 315 dövlət nömrə nişanlı avtomaşınlarla oraya gəlmiş, Asəf Şahverdiyev isə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girdiyi

Rəcəbov Rasim Yavər oğlu və Əliyev Gündüz Mübariz oğlu ilə birlikdə bir ədəd 12 kalibrli «Vinçester» markalı ov tüfəngi və «DUOCAL 635» markalı 59446 №-li bir ədəd tapança ilə silahlanıb VAZ-2106 markalı 07 VA 078 dövlət nömrə nişanlı avtomaşında həmin əraziyə gəldikdə, Etibar Məmmədov aralarındakı münaqişənin kənarda davam etdirilməsi üçün onları Astara rayonunun Şahağacı kəndi ərazisində yerləşən çöllük sahəyə aparmış və sonuncu orada avtomaşından düşən kimi Asəf Şahverdiyevlə əlbəyaxa olmuş, qarşı tərəfi vahid qəsdlə öldürmək məqsədi ilə Ceyhun Məmmədov tərəfindən «Churchill» markalı ov tüfəngindən arxadan bir neçə dəfə atəş açılmaqla döş qəfəsinin yarısının arxa səthindən döş boşluğuna keçərək ürəyi, sol ağ ciyəri və 9-10-cu qabırğaları zədələyən kor güllə yarasından ibarət xəsarətlər yetirilməklə Rasim Rəcəbov, eyni vaxtda Murad Əliyev və Anar Məmmədov tərəfindən «Makarov» tipli tapançadan, Amid Əliyev tərəfindən isə «Vinçester» markalı tüfəngdən çoxsaylı atəşlər açılaraq döş qəfəsinin sol yarısında ürəyi və sol ağ ciyəri zədələyən 3 ədəd dəlib keçən, sol bazu və sol bud nahiyələrinin bir ədəd kor, döş qəfəsinin sol yarısının arxa səthinin bir ədəd kor güllə yarası və burun nahiyəsinin sıyrığından ibarət xəsarətlər yetirilməklə Asəf Şahverdiyev qəsdən öldürülmüş, həmçinin Amid Əliyev tərəfindən «Vinçester» markalı tüfəngdən bir dəfə atəş açılaraq sağ bud nahiyəsinin yarası, sağ bud sümüyünün böyük burmasının yerini dəyişən açıq qəlpəli sınığı ilə müşayiət olunan, həyat üçün təhlükəli olan və sağlamlığa ağır zərər vuran xəsarət yetirilməklə Gündüz Əliyevin qəsdən öldürülməsinə cəhd edilmiş, bundan sonra onlar Asəf Şahverdiyevi, Rasim Rəcəbovu və Gündüz Əliyevi öldürdüklərinə əmin olaraq hadisə yerindən qaçmışlar. Lakin Gündüz Əliyevin mobil telefonla kömək çağırması və vaxtında lazımi tibbi yardım alması nəticəsində həyatı xilas edilmişdir. Hökmdən zərərçəkmiş şəxslər və onların müdafiəçiləri apelyasiya şikayəti versələr də, Azərbaycan Respublikası Apelyasiya Məhkəməsinin 09 mart 2007-ci il tarixli qərarı ilə I instansiya məhkəməsinin hökmü dəyişdirilmədən öz qüvvəsində saxlanılmışdır (7).

Hökm və cinayət işinin materialları ilə müəyyən olunur ki, Murad Əliyev qardaşı evinin Asəf Şahverdiyevin sifarişi ilə partladılmasından şübhələndiyi üçün ondan qisas almaq istəmişdir. Bundan ötrü o, Məmmədov Etibar, Məmmədov Anar qardaşlarına müraciət etmişdir. Etibar Məmmədovun rəhbərliyi altında Anar Məmmədov, Murad Əliyev, Ceyhun Məmmədov və Amid Əliyevdən ibarət qrup yaradılmışdır. Qrup üzvləri «Makarov» və «Vinçester» silahları ilə silahlanaraq Asəf Şahverdiyevi kəndin çöllük sahəsinə çağırmışlar. Burada əvvəlcədən planlaşdırıldığı kimi Etibar Məmmədov Asəf Şahverdiyevlə əlbəyaxa olmuş, Murad Əliyev, Anar Məmmədov tapança silahından Asəf Şahverdiyevə, Ceyhun Məmmədov və Amid Əliyev isə ov tüfəngindən Asəf Şahverdiyevlə birlikdə hadisə yerinə gəlmiş Rasim Rəcəbova və Gündüz Əliyevə atəşlər açmışlar. Asəf Şahverdiyev və Rasim Rəcəbov almış olduğu xəsarətlərdən ölmüş, Gündüz Əliyev isə yaralanmışdır. Göründüyü kimi bura-

da 5 nəfərdən ibarət dəstə yaradılmış, dəstədə başçı müəyyən edilmiş, cinayətin törədilmə planı işlənib hazırlanmış, bundan ötrü hazırlıq işləri görülmüş, cinayətin törədilmə yeri əvvəlcədən müəyyən edilmiş, iştirakçılar arasında rolların bölgüsü aparılmışdır. Bir sözlə, bəhs edilən cinayətdə onun törədilməsinə mütəşəkkillik verən mühüm əlamətlər mövcud olmuşdur. Ona görə də əməl mütəşəkkil dəstə tərəfindən törədilən cinayət kimi tövsif olunmalı olduğu halda, həm ibtidai araşdırma, həm də məhkəmə orqanları tərəfindən səhv olaraq qabaqcadan əlbir olan bir qrup şəxs törədilən cinayət kimi tövsif olunmuşdur.

Mütəşəkkil dəstənin iştirakçılığın növləri ilə qarşılıqlı əlaqəsi problemi də maraqlı məsələlərdəndir. Cinayət hüququ nəzəriyyəsində bununla əlaqədar əsasən iki mövqe mövcuddur. Bir mövqeyə görə cinayətin bütün iştirakçıları mütəşəkkil dəstəyə daxil olduqları andan onun üzvlərinə çevrilir və cinayətin törədilməsinin məkan və zamanından, faktiki həyata keçirdikləri rolun xarakterindən asılı olmayaraq birgə icraçılar hesab olunurlar. Belə fikir birgə icraçılığın geniş mənada başa düşülməyinin nəticəsidir. Digər mövqe isə ondan ibarətdir ki, iştirakçılığın bu formasında cinayət çox zaman rolların bölgüsü yolu ilə həyata keçirilir, amma burada birgə icraçılıq da istisna edilməməlidir. Fikrimizcə, nəzərdən keçirdiyimiz qrupa mütəşəkkilliyin xas olması dəstənin tərkibinə, vəzifəsi cinayətin bilavasitə icra edilməsindən ibarət olmayan şəxslərin daxil edilməsinə imkan verir. Yalnız cinayəti icra edib onun izlərini gizlətmək, məhv etmək barədə fikirləşməyən mütəşəkkil dəstəni təsəvvür etmək, əlbəttə ki, çətindir. Ona görə də hesab edirik ki, mütəşəkkil dəstədə birgə icraçılığın mövcudluğunu istisna etmək olmaz, lakin birgə icraçılıq əksər hallarda rolların bölgüsü ilə müşayiət olunur, yəni adətən iştirakçılığın qarışıq növü mövcud olur.

Misal gətirək. Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin 20 sentyabr 2004-cü il tarixli hökmü ilə əvvəllər qəsdən adam öldürmə cinayətinə görə məhkum edilən və məhkumluğu ödənilməyən Mehdi Aydın oğlu Rzayev Azərbaycan Respublikası CM-nin 120.1, 120.2.1, 120.2.4, 29, 120.2.7, 120.2.9, 120.2.10, 120.2.11, 29, 120.2.1, 29, 120.2.4, 29, 120.2.9, 29, 120.2.10, 29, 120.2.11, 181.3.1, 181.3.2, 181.3.3, 232.3.1, 232.3.2, 228.3 və 229.3-cü maddələri ilə təqsirli bilinərək ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. M.A.Rzayev ona görə təqsirli bilinmişdir ki, o, təkrarən Zaqatala rayonu Mazıx kənd sakinləri Məmmədnəbi Ramazan oğlu və Ayşa Hacı qızı Qayırbekovaların əmlakını ələ keçirmək məqsədi ilə onların nəvəsi Tural Qədir oğlu Mehdiyev, Albina Viktorovna Mustafayeva, Qorxmaz Mustafa oğlu Mustafayevlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək mütəşəkkil dəstə təşkil etmiş, onlar arasında vəzifə bölgüsü aparmaqla plan hazırlamış, üzərinə qara rezin örtük çəkilmiş polad materialdan hazırlanmış məftil və yapışqanlı lenti götürərək Albinanın hazırladığı maskanı üzlərinə, verdiyi əlcəyi əllərinə taxaraq, 23 iyul 2003-cü il tarixdə saat 00-15 radələrində Qayırbekovların yaşadığı evə girib, qocaların köməksiz vəziyyətindən istifadə edərək onların üzərinə həyat və sağlamlıqları

üçün təhlükəli zorakılıqla basqın edərək Məmmədnəbi Qayırbekovu qəsdən öldürmüşlər. Belə ki, o, pul və qiymətli əşyaların verilməsini tələb edərkən Q.Mustafayev stolun üstündə olan qara rəngli, plasmas materialdan düyməsi olan əl fanarını Məmmədnəbinin başına vurmuş, Tural trosu babasının boğazına dolayıb bir tərəfindən özü, digər tərəfindən o tutub sıxarkən Qorxmaz yapışqan lentlə ağzını və ayaqlarını bağlayıb tutmaqla tərpənməsinə imkan verməmiş, hər üçü birlikdə arvadının gözləri qarşısında ərini xüsusi amansızlıqla qəsdən öldürmüşlər. Bundan sonra M.A.Rzayev Ayşanın üzərinə həyatı və sağlamlığı üçün təhlükəli zorakılıqla hücum edərək Tural Mehdiyevin köməyi ilə ağ parça ilə yatdığı çarpayıya bağlayaraq ondan pul, qızıl-ziynət əşyalarının yerini deməsini tələb etmiş, bunun nəticə vermədiyini görüb onu qəsdən öldürmək məqsədi ilə özlərində olan məftillə boğazından sıxaraq və yapışqanlı lentlə ağzını bağlayıb döydüklərindən öldürdüklərini zənn etmiş, bundan sonra isə evi axtararaq 250.000 manat dəyərində «CVS» markalı video maqnitafon, 160.000 manat dəyərində «ŞARP» markalı audio maqnitofon, 200.000 manat dəyərində 16 kalibrli qoşalülə D52063 saylı ov tüfəngi və 2000 manat dəyərində həmin tüfəng üçün 1 ədəd patron, 12.000 manat dəyərində əl fanarı, 35.000 manat dəyərində 1 litr ölçüdə qrafində araq və 1.200.000 manat nağd pul götürərək hadisə yerindən qaçmışlar. Ayşa Qayırbekova güc toplayıb ağzına və əl-ayaqlarına bağlanmış yapışqanlı lenti açaraq qonşulara məlumat vermiş, zəruri tibbi yardım göstərilməsi nəticəsində həyatı xilas edilmiş, bununla da hər üç təqsirləndirilən şəxs iradələrindən asılı olmayan səbəbdən cinayətkar məqsədlərini tam başa çatdıra bilməmişlər.

Həmin hökmlə Mustafayev Qorxmaz Mustafa oğlu, Mehdiyev Tural Qədir oğlu da Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.4 və digər maddələri ilə təqsirli bilinərək müddətli azadlıqdan məhrum etmə cəzalarına məhkum edilmişlər. Mustafayeva Albina Vikiorovna isə Azərbaycan Respublikası CM-nin 32.5, 120.2.1, 32.5, 120.2.4 və qeyri maddələri ilə təqsirli bilinmişdir (1). Göründüyü kimi nəzərdən keçirilən cinayət M.A.Rzayevin təşkil etdiyi və T.Q.Mehdiyev, Q.M.Mustafayev və A.V.Mustafayevadan ibarət mütəşəkkil dəstə tərəfindən törədilmişdir. M.A.Rzayev, T.Q.Mehdiyev və Q.M.Mustafayev cinayətdə birgə icraçı, A.V.Mustafayeva isə köməkçi qismində iştirak etmişlər.

Lakin məhkəmə-istintaq təcrübəsində, bəzən hətta yuxarı instansiya məhkəmələrində mütəşəkkil dəstə tərəfindən törədilən cinayətlərdə müxtəlif funksiyalar yerinə yetirməklə iştirak etmiş şəxslərin əməllərinin tövsifində səhvlərə yol verilməsinə rast gəlinir. Misal gətirək. Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2003-cü il 24 oktyabr tarixli hökmünə əsasən R.Nadirov Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.5, 120.2.11, 181.3.1, 181.3.2, 181.3.3, 217.2 və 228.3-cü maddələri ilə təqsirli bilinərək CM-nin 120.2.1, 120.2.5, 120.2.11-ci maddələri ilə 13 il, CM-nin 181.3.1. 181.3.2 və 181.3.3-cü maddələri ilə əmlakı müsadirə

edilməklə 11 il, CM-nin 217.2-ci maddəsi ilə əmlakı müsadirə edilməməklə 9 il, CM-nin 228.3-cü maddəsi ilə 6 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. CM-nin 66.3-cü maddəsinə əsasən müxtəlif maddələrlə təyin olunmuş cəzalar qismən toplama yolu ilə birləşdirilərək, ona qəti olaraq əmlakı müsadirə olunmadan 14 il azadlıqdan məhrum etmə cəzası təyin olunmuşdur. Cinayət hadisəsinin digər iştirakçıları Q.Nuriyev, A.İmanov və R.İslamov Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 3.02.03-cü il tarixli hökmü ilə məhkum edilmişlər.

R.Nadirov ona görə məhkum edilmişdir ki, o, tamah məqsədilə adam öldürmə, özgəsinə məxsus külli miqdarda əmlakı ələ keçirmək üçün ayrı-ayrı şəxslərə qarşı quldurluq edərək silah tətbiq etmək niyyəti ilə həmyerlisi Q.Nuriyevin təşkil etdiyi, A.İmanov və R.İslamovdan ibarət mütəşəkkil dəstənin və sabit silahlı qrupun (bandanın) tərkibində həmin bandanın törətdiyi basqında iştirak etmişdir. Belə ki, onun daxil olduğu banda üzvləri 20 iyun 2002-ci ildə Kürdəmir şəhəri, Qarabağ küçəsi, ev 6-da yaşayan N.İsmayılovu tamah məqsədilə qəsdən öldürüb əmlakını ələ keçirmək qərarına gəlmişlər. Həmin gün Q.Nuriyev, A.İmanov və R.İslamov axırıncının yaşadığı Kürdəmir şəhəri, 20 yanvar küçəsində yerləşən 6 saylı evdə birgə plan hazırlayarkən R.Nadirov cinayətin törədilməsinə məsləhətləri və məlumatları ilə onlara yardım etmişdir. Bu zaman R.Nadirov bildirmişdir ki, Kürdəmir şəhərində mobil telefon satışı və valyuta mübadiləsi ilə məşğul olan N.İsmayılovun üstündə ən azı 3000 ABŞ dolları məbləğində pul olmalıdır və ona axşam işdən qayıdarkən və ya səhər işə gedərkən basqın etmək əlverişlidir. Bundan sonra, o, N.İsmayılovun yaşadığı evi A.İmanov, Q.Nuriyev və R.İslamova göstərmiş və N.İsmayılovun işdən çıxma vaxtını öyrənib banda üzvlərinə çatdırmaq məqsədilə axırıncının işlədiyi “Novruz” kafesinin yanına getmişdir. Saat 24 radələrində N.İsmayılovun işdən çıxması barədə banda üzvlərinə mobil telefonla məlumat versə də, onlar gec olduğuna görə planlarını həyata keçirməyi sabaha saxladıqlarını bildirmişlər. 21 iyun 2002-ci ildə saat 6.45 radələrində A.İmanov, Q.Nuriyev və R.İslamov səsboğucu olan “Baykal” markalı tapança ilə silahlanaraq N.İsmayılovun yaşadığı evin yaxınlığına gəlmişlər. R.İslamov küçədə gözləmiş, A.İmanov və Q.Nuriyev isə daş hasardan aşıb həyətə daxil olmaqla pusquda dayanmışlar. Saat 7.30 radələrində N.İsmayılov evdən çıxıb işə getmək istəyərkən Q.Nuriyev və A.İmanov onun qarşısını kəsmiş, A.İmanov 1.5 metr məsafədən N.İsmayılovun baş nahiyəsindən tapançadan atış açmaqla onu öldürmüşdür. Bundan sonra, Nuriyev və İmanov N.İsmayılovun əlində olan bağlamadakı 950 ABŞ dolları və 47.000.000 manatdan ibarət pulu, hər birinin dəyəri 40 ABŞ dolları olan 2 ədəd işlənmiş “Erikson 628” markalı, dəyəri 118 ABŞ dolları olan bir ədəd təzə “Erikson – T-28” markalı, habelə məhkumun şəxsi istifadəsində olmuş “Samsunq” markalı mobil telefonları götürüb hadisə yerindən qaçmışlar.

Məhkumun müdafiəçisinin hökmdən verdiyi apelyasiya şikayəti Apel-

yasiya məhkəməsinin 26.12.03-cü il tarixli qərarı ilə, apelyasiya qərarından verilən kasasiya şikayəti isə Ali məhkəmənin 28.12.04-cü il tarixli qərarı ilə təmin edilməmişdir. Məhkumun müdafiəçisi əlavə kasasiya şikayəti verərək kasasiya qərarının ləğv edilməsini və işin yeni kasasiya baxışına qaytarılmasını xahiş etmişdir. Əlavə kasasiya şikayətində göstərilmişdir ki, R.Nadirov cinayəti törətməkdən könüllü imtina etdiyindən, CM-nin 30-cu maddəsinə görə onun əməlində cinayət tərkibi yoxdur. R.Nadirov hadisə yerində olmamış, basqın zamanı ələ keçirilən əmlakdan ona pay düşməmişdir. Bu hal Q.Nuriyev və başqaları haqqında çıxarılmış 3.02.03-cü il tarixli hökmdə də öz əksini tapmışdır. Məhkəmələrdə işə baxılarkən həmin məsələlər tədqiq edilməmiş, birinci instansiya məhkəməsinin hökmündən və apellyasiya məhkəməsinin qərarından verilən şikayətlərdə göstərilən bu dəlillərə hüquqi qiymət verilməmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu əlavə kasasiya şikayətinə baxaraq hesab etmişdir ki, aşağıdakılara görə Ali Məhkəmənin Cinayət işləri və inzibati xətalara dair işlər üzrə kollegiyasının 23.11.04-cü il tarixli qərarı hissə ilə ləğv edilməlidir. Birinci və apelyasiya instansiyaları məhkəmələrinin qərarları ilə müəyyən edilmişdir ki, R.Nadirov cinayətkar yoldaşları, 3.02.03-cü il tarixli hökmlə məhkum olunmuş Q.Nuriyev, A.İmanov və R.İslamov ilə birlikdə 2002-ci il iyunun 21-də N.İsmayılova quldurcasına basqın edilməsi cinayətində iştirakçı olmuşdur. R.Nadirov həmin şəxslərlə birlikdə hər hansı cinayət əməli törətməsini bütün ifadələrində inkar etsə də, birinci instansiya məhkəməsi həmin nəticəyə gələrkən R.İslamov, A.İmanov və Q.Nuriyevin ibtidai istintaq dövründə verdikləri ifadələrini əsas götürmüşdür. Həmin ifadələrə əsasən onlar hələ Bakı şəhərində olarkən Kürdəmirdə yaşayan N.İsmayılovun evinə silahlı basqın edib əmlakını ələ keçirmək barədə razılaşmışlar. 20.06.02-ci ildə avtobusla Kürdəmirə gedərkən yolda A.İmanov həmin rayonda yaşayan tanışı A.Nadirova mobil telefonla zəng edərək Kürdəmirə gəldikdən sonra R.İslamovun yaşadığı evdə olacaqlarını bildirmiş və onu da həmin yerə dəvət etmişdir. R.İslamovun evində olarkən onlar öz planları barədə A.Nadirova məlumat vermiş, N.İsmayılovun evinin yerini soruşmuş, onun axşam işdən nə vaxt çıxması ilə maraqlanmışlar. A.Nadirov N.İsmayılovun həqiqətən imkanlı şəxs olduğunu bildirmiş və evinin yerini onlara göstərmişdir. Digər üç nəfərin tapşırığı ilə R.Nadirov N.İsmayılovun işlədiyi çayçıya gedib gözləmiş, saat 24 radələrinə onun işdən çıxması barədə mobil telefonla A.İmanova məlumat vermişdir. Lakin basqınçılar artıq gec olduğundan əməliyyatı sabaha saxladıqlarını bildirmişlər. Gecə saat 3 radələrində A.İmanov A.Nadirova zəng edib çıxmağı təklif etdikdə o, təklifdən boyun qaçıraraq onlara “Allah işinizi avand eləsin!” demişdir. Bundan sonra Q.Nuriyev, R.İslamov və A.İmanov saat 7.30 radələrində N.İsmayılovun həyətində onu silahlı basqın etməklə öldürmüş və külli miqdarda əmlakını ələ keçirmişlər.

Müdafiə tərəfinin fikrincə, R.Nadirovun bilavasitə cinayət hadisəsinin törədilməsində iştirak etməməsi cinayət törətməkdən könüllü imtina etmə kimi

qiymətləndirilməli və bu hal onun cinayət məsuliyyətindən azad edilməsinə səbəb olmalıdır. Plenum hesab etmişdir ki, əlavə kasasiya şikayətinin bu dəlili R.Nadirovun cinayət məsuliyyətindən tam şəkildə azad edilməsinə səbəb ola bilməz. Belə ki, Azərbaycan Respublikası CM-nin 30.3-cü maddəsinə görə cinayəti başa çatdırmaqdan könüllü imtina edən şəxsin əməlində başqa cinayətin tərkibi olmadıqda o, cinayət məsuliyyətindən azad olunur. Birinci və apelyasiya instansiyası məhkəmələri tərəfindən müəyyən edilən hallardan isə aydın olur ki, R.Nadirov Q.Nuriyev və qeyrilərinin N.İsmayılova quldurcasına basqın edərək külli miqdarda əmlakını ələ keçirmək niyyətini bilmiş, onlara kömək göstərmişdir. Belə ki, o, N.İsmayılovun yaşadığı evi cinayətkar qrupun üzvlərinə göstərmiş, İsmayılovun iş yerinə gedib müşahidə aparmaqla işdən nə vaxt çıxması barədə məlumat vermişdir. R.Nadirovun cinayət hadisəsi törədilərkən bilavasitə hadisə yerində olmaması, həmin vaxta qədər törətdiyi cinayət əməllərinə görə məsuliyyətini istisna etmir. R.Nadirov Q.Nuriyev, A.İmanov və R.İslamovun mərhum N.İsmayılovun evinə quldurcasına basqın etmələri cinayətində köməkçi qismində iştirak etmişdir. Bu əməl isə Azərbaycan Respublikası CM-nin 32, 181.3-cü maddəsinin tərkibini yaradır.

Qanuna görə şəxs ibtidai istintaq orqanı tərəfindən toplanılıb məhkəməyə təqdim edilən və mötəbərliyi məhkəmə araşdırmaları zamanı təsdiq edilən sübutlar olduqda məhkum edilə bilər. Cinayət işində isə məhkum R.Nadirovun Q.Nuriyevin A.İmanov və R.İslamovdan ibarət sabit silahlı qrup (banda), yaxud sabit cinayətkar qrup (mütəşəkkil dəstə) təşkil etməsini bilməsi və cinayət törətmək məqsədilə həmin qruplara daxil olması barədə hər hansı məlumat yoxdur. Əksinə, işdən görünür ki, bandanın təşkilatçısı Q.Nuriyevlə onun hadisə gününədək hər hansı tanışlığı olmamışdır. Q.Nuriyev, A.İmanov, R.İslamov ibtidai istintaq dövründə verdikləri ifadələrində göstərmişlər ki, onlar N.İsmayılovun evinə basqın etmək üçün tapança ilə silahlanıb Kürdəmir şəhərinə avtobusla gələrkən yolda A.İmanov tanışı R.Nadirova mobil telefonla zəng vurmuşdur ki, görüşmək üçün R.İslamovun evinə gəlsin. R.İslamovun yaşadığı evində görüşərkən R.Nadirov onların N.İsmayılova basqın edəcəyini bilsə də, orada İsmayılovun öldürülməsi barədə söhbət getməmişdir. R.Nadirov N.İsmayılovun öldürülməsində iştirak etməyərək hadisə yerində olmamışdır, onun odlu silah əldə edilməsində iştirak etməsi barədə də işdə hər hansı sübut yoxdur. Qeyd edilənlərə əsasən Ali məhkəmənin Plenumu haqlı olaraq hesab etmişdir ki, R.Nadirov Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.5, 120.2.1, 217.2 və 228.3-cü maddələri ilə, yəni ağırlaşdırıcı hallarda qəsdən adam öldürmə, sabit silahlı qruplarda (bandalarda) iştirak etmə və mütəşəkkil dəstənin tərkibində odlu silah əldə etmə cinayətlərini törətməkdə əsassız olaraq təqsirli bilinmişdir. Ona görə də Plenum kasasiya instansiyası məhkəməsinin qərarını hissə ilə ləğv edərək həmin maddələrlə cinayət işinin icraatına xitam verilməsi, R.Nadirov külli miqdarda özgə əmlakını ələ keçirmək məqsədilə törədilən, zərərçəkmişə ağır zərər vurmaqla nəticələnən qul-

durcasına silahlı basqında köməkçi qismində iştirak etdiyi üçün əməlinin CM-nin 32, 181.3.2 və 32, 181.3.3-cü maddələri ilə tövsif edilməsi və ona həmin maddələr ilə 10 (on) il müddətinə azadlıqdan məhrum etmə cəzasının təyin edilməsi barədə qərar qəbul etmişdir (5).

Məhkəmə-istintaq təcrübəsində bəzən mütəşəkkil dəstə və banda anlayışları bir-biri ilə eyniləşdirilir, onlar arasında heç bir fərq fərq qoyulmur. Bunu Ali Məhkəmənin Plenumunun yuxarıda göstərilən qərarında da müşahidə etdik. Başqa misal gətirək. Ağır Cinayətlərə Dair İşlər Üzrə Azərbaycan Respublikası Məhkəməsinin 23 iyun 2008-ci il tarixli hökmü ilə Vəliyev Rəcəb Adil oğlu Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.4, 120.2.11, 29, 120.2.7-ci maddələri ilə təqsirli bilinib ömürlük azadlıqdan məhrum etmə cəzasına, CM-nin 178.3.2-ci maddəsi ilə əmlakı müsadirə olunmaqla səkkiz il müddətinə azadlıqdan məhrum etmə cəzasına, CM-nin 181.3.1, 181.3.2 və 181.3.3-cü maddələri ilə əmlakı müsadirə olunmaqla doqquz il müddətinə azadlıqdan məhrum etmə cəzasına, CM-nin 217.1-ci maddəsi ilə əmlakı müsadirə olunmaqla on bir il müddətinə azadlıqdan məhrum etmə cəzasına, CM-nin 228.1-ci maddəsi ilə iki il müddətinə azadlıqdan məhrum etmə cəzasına, CM-nin 320.1-ci maddəsi ilə bir il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. Azərbaycan Respublikası CM-nin 66.3-cü maddəsinə əsasən təyin edilmiş cəzaları toplamaq yolu ilə Vəliyev Rəcəb Adil oğlunun üzərində qəti olaraq əmlakı müsadirə olunmaqla ömürlük azadlıqdan məhrum etmə cəzası saxlanılmışdır.

R.A.Vəliyev məhkum olunmuşdur ona görə ki, o, 2007-ci ilin iyun ayında Bakı şəhəri 8-ci km yaşayış massivində yerləşən maşın bazarında tanış olduğu Umbayev İsmayıl Tofiq oğlunun bazar qiyməti 14.450 AZN təşkil edən “Mercedes Benz-230E” markalı avtomobilini və 1800 ABŞ dolları məbləğində pul vəsaitini təkrarən dələduzluq yolu ələ keçirmişdir. Bundan başqa, R.A.Vəliyev İsgəndərov Elşən Natiq oğlu və Cəfərov Ramil Rafiq oğlu ilə 2007-ci ilin sentyabr-noyabr aylarında Bakı şəhərində ayrı-ayrı imkanlı şəxslərə basqın edib külli miqdarda əmlak ələ keçirmək barədə razılığa gəlmiş, bu məqsədlə Rəcəb Vəliyev onlardan ibarət *sabit silahlı qrup (banda)* (kursiv mənə məxsusdur – N.Ə.) təşkil edib, onları odlu silahlar və döyüş sursatları ilə təchiz etmək üçün həmin bandaya rəhbərlik etməklə 2007-ci ilin avqust ayında Gürcüstan Respublikasında olarkən istintaqa məlum olmayan şəxslə bir ədəd odlu silahın Bakı şəhərində ona satılması barədə razılaşıb, 04 sentyabr 2007-ci il tarixdə Bakı şəhərində istintaqla müəyyən edilməmiş şəxsdən bir ədəd odlu silah hesab edilən «Fırtına Super Maqnum» modelli, 9 mm kalibrli qaz tapançasını və onun komplekt hissəsi olan sandıqçasını 200 ABŞ dollarına satın alıb qanunsuz əldə etmiş, habelə Gürcüstan Respublikasından qanunsuz olaraq odlu silah və döyüş sursatı əldə edib qaçaqmalçılıq yolu ilə Bakı şəhərinə gətirmək üçün 24 oktyabr 2007-ci il tarixdə bandanın üzvü Elşən İsgəndərovla birlikdə Qazax rayonuna gedib, sonuncuya həmin rayonda onu

gözləməsini tapşıraraq Gürcüstan Respublikasının ərazisinə keçib, istintaqla müəyyən edilməmiş şəxslərlə danışıq apararaq odlu silah hesab edilən «Maqnum» modelli tapança, tapançanın komplekt hissəsi sayılan sandıqça və döyüş sursatı olan patronlarını 500 ABŞ dollarına satın almaqla əldə etmiş, «Gold Star-2002» markalı digər tapançanın isə 26 oktyabr 2007-ci il tarixdə Bakı şəhərində ona satılması barədə razılaşmışdır. Bundan sonra o, yaxın münasibətdə olduğu, Gürcüstan Respublikasının Bolnisi rayonunun Faxralı kəndində yaşayan Osmanov Araz Azad oğlu ilə 25 oktyabr 2007-ci il tarixdə Marneuli şəhərində görüşüb qanunsuz əldə edib gəzdirdiyi «Maqnum» modelli tapança, sandıqça və patronları 50 ABŞ dolları müqabilində qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirməyi təklif etmiş, Araz Osmanov 28 oktyabr 2007-ci il tarixdə həmin silah, sandıqça və patronları əynində olan paltarların altında gizlətməklə, yaşadığı Faxralı kəndindən Bakı şəhərinə gedən «İkarus» markalı avtobusla Azərbaycan Respublikasının gömrük sərhədinin 2-ci Şıxlı nəzarət-buraxılış məntəqəsində gömrük nəzarətindən gizli keçirərək Bakı şəhərinə gətirib, Bakıxanov qəsəbəsi ərazisində Rəcəb Vəliyevə vermişdir. «Gold Star-2002» markalı tapançanı, onun komplekt hissəsi sayılan sandıqçasını və döyüş sursatını isə 26 oktyabr 2007-ci il tarixdə Bakı şəhərində istintaqla müəyyən edilməmiş şəxslə görüşüb 400 ABŞ dolları məbləğində pul vəsaiti müqabilində satın almaqla əldə etdikdən sonra, Rəcəb Vəliyev *mütəşəkkil dəstə tərkibində* (kursiv mənə məxsusdur – N.Ə.) təkrarən qeyd olunan silah və sursatları idarə etdiyi avtomaşında və üstündə gəzdirərək daşımaqla 10 noyabr 2008-ci il tarixə kimi Elşən İsgəndərovla birgə qaldıqları Bakı şəhəri, Suraxanı rayonu, S.Əliyev küçəsində yerləşən evdə saxlamışdır. *Banda* (kursiv mənə məxsusdur – N.Ə.) üzvlərini silah və sursatla təchiz etdikdən sonra o, Elşən İsgəndərov və Ramil Cəfərovla birlikdə özgənin külli miqdarda əmlakını ələ keçirmək məqsədilə imkanlı şəxs kimi tanıdığı Əliyev Bahəddin Əli oğluna məxsus Bakı şəhəri, Sabunçu qəsəbəsi, C.Şərifov küçəsi, 50 b ünvanda yerləşən həyət evinə silahlı basqın etmək barədə razılığa gələrək, bu basqının planının işlənib hazırlanmasını, müşahidələr aparmaqla həyət evinin giriş, çıxış yerlərinin, yaşayış sahəsinə daxil olmaq və basqından sonra qaçıb gizlənmək üçün həyətin əlverişli sahəsinin və vaxtının müəyyənləşdirilməsini təşkil etmiş, 09 noyabr 2007-ci il tarixdə Elşən İsgəndərovla birgə basqın zamanı sifətlərinin tanınmaması və əl izlərinin hadisə yerində qalmaması üçün bir ədəd qadın corabı, iki cüt rezin əlcək alaraq, habelə özləri ilə skoç tipli yapışqanlı lent götürərək əvvəlcədən razılaşdıqları kimi Bakıxanov stansiyasında onları gözləyən Ramil Cəfərovla görüşüb, idarə etdiyi avtomaşında başlarına keçirilən maska kimi istifadə etmək üçün corabı üç yerə bölüb, qanunsuz əldə edib gəzdirdiyi və daşıdığı, sandıqçasında patronlar olan üç ədəd silahdan «Fırtına Super Maqnum» modelli tapançanı özünə götürüb, «Gold Star- 2002» modelli tapançanı Elşən İsgəndərova, «Maqnum» modelli digərini isə Ramil Cəfərova vermiş, *banda* (kursiv mənə məxsusdur – N.Ə.)

üzvləri arasında vəzifə bölgüsü apararaq, 10 noyabr 2007-ci il tarixdə saat 01 radələrində vahid qəsdlə qeyd olunan həyətə girdikdən sonra onun verdiyi göstərişlərə əsasən Elşən İsgəndərov qarşılarına çıxan, hücuma məruz qalmış ev sahibinin atası Alı Abaz oğluna dərhal atəş açıb, kəskin qanitirmə ilə nəticələnən döş qəfəsinin sağ yarısının ön səthinin döş boşluğuna nüfuz edən, sağ ağ ciyəri zədələyən kor odlu silah (qırma) yaralanmaları xəsarətlərini yetirmiş, onu evin içinə aparıb oğlu Bahəddin Əliyev, nəvələri Firdovsi və Həsrətəli Əliyevlərin gözü qarşısında yerə uzadıb, atasına kömək etmək istəyən Bahəddin Əliyevə imkan verməyərək banda üzvləri Ramil Cəfərov və Elşən İsgəndərovla birgə zərbələr vurub sol çənə şaxəsinin qançırı xəsarətini yetirib yaxın qohumlarına əzab verdiklərini dərk etməklə xüsusi amansızlıqla qəsdən öldürmüş, evdə olan Bahəddin Əliyev, Firdovsi Əliyev və Həsrətəli Əliyevə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə sonuncu üç nəfərin başlarına tapança dirəyib, onları dizi üstə yerə oturmağa və uzanmağa məcbur edib külli miqdarda pul tələb etmiş, həmin vaxt otaqda gizlənən Asif Əliyevin mobil telefonu vasitəsilə qonşuluqda yaşayan əmisi Xəlilə zəng vurub hadisə barədə məlumat verməsindən sonra Rübabə, Elbrus, Vəli, Rafiq, Xəlil, Narın, Rövşənin köməyə gəlməsi ilə əlaqədar evi tərk edib qaçarkən qarşılarına çıxan həmin şəxsləri qəsdən öldürmək məqsədilə ümumi təhlükəli üsulla onlara atəşlər açmış, bu zaman Elşən İsgəndərov Rövşənə açdığı atəşlə qarının yuxarı şöbəsinin sol yan səthində periton və periton arxası boşluqlara nüfuz edən sol böyrəyi və 3-cü bel fəqərəsini zədələyən, yetirilən an həyat üçün təhlükəli olan bir ədəd kor odlu silah (güllə) yaralanması xəsarətlərini yetirmiş, özü isə istifadəsində olan silahdan açdığı atəşlə Rübabə Quliyevaya sol gicgah-ənsə nahiyəsinin bir ədəd kor odlu silah (güllə) yaralanması, zor tətbiq etməklə Rafiq Əsgərova sağ əlin 4-5-ci daraq sümükləri əsasının qapalı sınığı xəsarətlərini yetirmiş, Elbrus Əliyevin sifət nahiyəsinə tapançanı tutub bir neçə dəfə tətiyi çəksə də, atəş açılmadığından, habelə köməyə gəlmiş şəxslərin səyi nəticəsində Rəcəb Vəliyev zərərsizləşdirilərək tutulduğu, *banda* (kursiv mənə məxsusdur – N.Ə.) üzvləri Elşən İsgəndərov və Ramil Cəfərov hadisə yerindən qaçdıqları üçün iki nəfərdən çox şəxsi qəsdən öldürməyə yönəlmiş əməllərini iradələrindən asılı olmayan səbəblərdən başa çatdıra bilməmişlər.

Bakı Apelyasiya Məhkəməsinin 21 avqust 2008-ci il tarixli qərarı ilə R.A.Vəliyevin apelyasiya şikayəti təmin olunmamış, birinci instansiya məhkəməsinin 23 iyun 2008-ci il tarixli hökmü dəyişdirilmədən qüvvəsində saxlanılmışdır. Apelyasiya instansiyası məhkəməsinin bu qərarından narazı qalan R.A.Vəliyev verdiyi kasasiya şikayətində həmin qərarın ləğv edilməsini, CM-nin 120.2.1, 120.2.4, 120.2.11, 29,120.2.7, 178.3.2, 181.3.1, 181.3.2, 181.3.3, 206.4, 217.1, 228.3 və 320.1-ci maddələri ilə ona bəraət verilməsini, CM-nin 181.2.1, 181.2.3, 181.2.4, 181.2.5, 206.3.2, 228.2.1 və 320.2-ci maddələri ilə təqsirli bilinərək barəsində ədalətli cəzanın təyin olunmasını xahiş etmişdir. Kasasiya şikayətinin dəlillərini məhkum R.A.Vəliyev onunla əsaslan-

dırmışdır ki, onun adam öldürmək niyyəti olmamış, məqsədi quldurluqla pul əldə etmək olmuşdur, rəhbərlik etdiyi dəstə mütəşəkkil olmamışdır.

Kasasiya məhkəməsi işin materiallarını öyrənib, kasasiya şikayətinin dəlillərini araşdırıb hesab etmişdir ki, cinayət işinin materialları ilə təsdiq edilir ki, məhkum Vəliyev Rəcəb Adil oğlu ayrı-ayrı şəxslərə basqın edib onların külli miqdarda əmlakını ələ keçirmək məqsədi ilə digər şəxslərlə sabit silahlı qrup - banda təşkil etmiş, bandanı Azərbaycan Respublikası Gömrük Sərhəddindən qaçaqmalçılıq yolu ilə gizli gətirmiş olduğu, qanunsuz əldə etdiyi odlu silah və döyüş sursatları ilə təchiz etməklə ona rəhbərlik etmişdir. Banda tərəfindən quldurluq niyyəti ilə xüsusi amansızlıqla adam öldürmə, iki və daha çox şəxsi öldürməyə cəhd etmə, rəsmi sənədi saxtalaşdırmaqla vətəndaşın külli miqdarda əmlakını aldatma yolu ilə ələ keçirmə cinayət əməllərinin törədilməsi təsdiq olunur. Ona görə də Vəliyev Rəcəb Adil oğlunun törətdiyi bu əməllər məhkəmə tərəfindən düzgün olaraq Azərbaycan Respublikası CM-nin 120.2.1, 120.2.4, 120.2.11, 29,120.2.7, 178.3.2, 181.3.1, 181.3.2, 181.3.3, 206.4, 217.1, 228.1, 228.3 və 320.1-ci maddələri ilə tövsif olunmuşdur. Qeyd edilənlərə əsasən Ali Məhkəmə 24 fevral 2009-cu il tarixdə kasasiya şikayətinin təmin edilməməsi, apelyasiya instansiyası məhkəməsinin 21 avqust 2008-ci il tarixli qərarının isə dəyişdirilmədən qüvvəsində saxlanılması barədə qərar qəbul etmişdir (4).

Məhkəmə qərarlarından göründüyü kimi, R.Vəliyevin yaratdığı qrup həm mütəşəkkil dəstə, həm də sabit silahlı qrup (banda) kimi qiymətləndirilmişdir. Ona görə də hesab edirik ki, mütəşəkkil dəstə ilə banda kateqoriyalarının qarşılıqlı müqayisəli təhlilinin aparılması vacib əhəmiyyətə malikdir. «Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bəzi normalarının tətbiqi qaydası haqqında» Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 11 aprel tarixli qərarına əsasən bandanın zəruri əlamətləri bunlardır: iki və ya daha çox şəxsdən ibarət olması, iştirakçılar arasında möhkəm təşkilati birlik olması, iştirakçılardan birində odlu və ya soyuq silah olması və digər iştirakçıların bunu bilməsi, iştirakçıların basqınlar (basqın) etmək məqsədi ilə əvvəlcədən birləşməsi. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Banditizm işləri üzrə məhkəmə təcrübəsi haqqında» 1996-cı il 7 iyun tarixli 1 saylı qərarına əsasən bandanın möhkəm təşkilati birliyi dedikdə, onun tərkibinin və təşkilati quruluşunun sabitliyi (iştirakçıların tərkibi bir qayda olaraq dəyişmir, iştirakçılar arasında vəzifə bölgüsü - rəhbər tabeçilik münasibətlərinin mövcud olması), banda üzvləri arasında sıx birlik (əvvəlcə kriminal əlbirliyin olması, vahid kriminal niyyətin mövcudluğu), kriminal fəaliyyətin eyni forma və metodlarla bağlılığı (əməlin fiziki, yaxud psixi zorla müşayiət olunan basqınla bağlı olması), müəyyən cinayətin, yaxud da cinayətlərin müntəzəm törədilməsi niyyətinin olması nəzərdə tutulur. Bandanın əsas əlamətlərindən biri onun iştirakçılarında silah olmasıdır. Bu silahlar döyüş, ov silahı, zavod üsulu ilə və ya əldə düzəldilmiş soyuq silah, müxtəlif partlayıcı qurğular, qaz silahı ola

bilər. Banda üzvlərinin heç olmasa birində silah olması, həmin silahın tətbiq edilməsi mümkünlüyünü yəqin edən digər banda üzvlərində bu haqda məlumatın olması, həmin bandanın silahlı banda hesab edilməsi üçün əsas verir. Bandanın üzvü olmayan, lakin banda tərəfindən törədilən cinayətlərdə iştirak etdiyini başa düşən şəxslərin əməlləri də silahlı bandada iştirak etmək kimi qiymətləndirilir. Zərərçəkmişin üzərində zor tətbiq etməklə cinayətkar nəticənin əldə olunması və ya dərhal zor tətbiq edilməsi üçün real təhlükə yaratmağa yönəldilmiş hərəkətlər basqın etmə kimi qiymətləndirilməlidir. Banditizm bir qrup şəxs tərəfindən zorakılıqla törədilən digər cinayətlərdən onun daxili tərkibinin daha mütəşəkkil, davamlı və möhkəm olması, bandanın silahlanması ilə fərqlənir (6, 160-163).

Bu zaman diqqəti çəkən əsas sual ondan ibarətdir ki, CM-nin Xüsusi hissəsində cinayətkar qrupun müxtəlif növləri qismində əksini tapmış təzahürləri Ümumi hissədə iştirakçılığın təsbit olunmuş formalarının çərçivəsinə daxildir, yoxsa həmin çərçivədən kənara çıxır? Məsələn, banda, silahlı birləşmələr və ya qruplar iştirakçılığın konkret hansı formasıdır: mütəşəkkil dəstə və ya cinayətkar birlikdir? Qüvvədə olan CM-də sabitlik əlaməti həm mütəşəkkil dəstəyə, həm də cinayətkar birliyə aid edildiyindən, bu suala birmənalı cavab vermək asan deyildir.

Cinayət hüququ nəzəriyyəsində bəzi müəlliflər banda ilə iştirakçılığın formalarını qarşılıqlı əlaqədə nəzərdən keçirmişlər. Məsələn, T.D.Ustinova CM-nin Ümumi hissəsində qrup tərəfindən törədilən cinayətləri nizama salan norma ilə Xüsusi hissədə banditizmə görə məsuliyyət nəzərdə tutan normanı qarşılaşdıraraq göstərmişdir: «Banda vətəndaşlara və təşkilatlara bir və ya bir neçə silahlı basqın törətmək üçün qabaqcadan birləşmiş, iki və ya daha çox şəxsdən ibarət olan sabit silahlı qrup və ya mütəşəkkil silahlı qrupdur. Banda iştirakçılığın digər növlərindən keyfiyyət xarakteristikasına görə fərqlənən sabit silahlı qrupdur» (14, 24). E.M.Əfəndiyevə görə CM-nin Ümumi hissəsində iştirakçılığın «mütəşəkkil dəstə» adlandırılan forması CM-nin Xüsusi hissəsində «sabit silahlı qruplar (bandalar)» kimi özünü tanıtdırır. Bu ifadələr arasında eynilik işarəsi qoyulsa da, qanunvericilik texnikasının tələbləri baxımından, eyni mənanın müxtəlif sözlərlə ifadəsi yolverilməz olduğundan, CM-in 217-ci maddəsinin hər iki hissəsində «sabit silahlı qruplar (bandalar)» ifadəsinin mətnə uyğun surətdə «mütəşəkkil dəstə» sözləri ilə əvəzlənməsi məqsədəuyğundur. Müəllif bu əsasla CM-nin 218-ci maddəsinə verilmiş ada uyğun olaraq 217-ci maddənin «Mütəşəkkil dəstə yaratma» kimi adlandırılmasını təklif etmişdir. E.M.Əfəndiyev bu təklifini həmçinin konkret «banditizm» cinayətinin olmaması ilə əsaslandırmağa çalışmışdır (10, 75).

E.M.Əfəndiyevin CM-nin Xüsusi hissəsində iştirakçılığın əksini tapmış formalarının CM-nin Ümumi hissəsində təsbit olunmuş formalarının çərçivəsindən kənara çıxmasının yolverilməzliyinə dair mövqeyini əsaslı sayırıq. Bu məsələdə bizim də mövqeyimiz ondan ibarətdir ki, CM-nin Xüsusi

hissəsində əksini tapmış müxtəlif cinayətkar qruplar Məcəllənin Ümumi hissəsində iştirakçılığın təsbit olunmuş formalarının (34-cü maddə) konkret təzahürləri kimi nəzərdən keçirilməlidir. Xüsusi hissədə əksini tapmış qrup təzahürləri Ümumi hissədə əksini tapmış qrup təzahürlərinin çərçivəsindən kənara çıxmalı deyildir. Bununla belə, hesab edirik ki, E.M.Əfəndiyevin qeyd olunan təklifi cəsarətli olduğu qədər də mübahisəlidir. «Banda» latın mənşəli «bandum» sözündən olmaqla ingilis dilində «band», italyan dilində «banda», alman dilində «band» deməkdir, vətəndaşlara və təşkilatlara basqın etmək məqsədi ilə yaradılan və fəaliyyət göstərən sabit silahlı qrup mənasını verir. Rusiyada bu termindən 1863-cü il Polşa üsyanından sonra geniş istifadə olunmağa başlanılmışdır. Belə ki, Polşa üsyançıları öz dəstələrini «partiya» və ya «banda» adlandırmışlar (13, 67). Azərbaycan Respublikasının ilk CM-dən (1922-ci il) tutmuş ta hazırkı CM-dək qəbul olunmuş bütün Məcəllələrdə banditizm müstəqil cinayət tərkibi nəzərdə tutulmuşdur. Digər tərəfdən, Azərbaycan Respublikası Milli Məclisinin yuxarıda göstərilən qərarından da aydın olur ki, banda müəyyən səciyyəvi əlamətlərə (silahlılıq, basqın etmək məqsədi) malikdir. Halbuki bu əlamətlər heç də həmişə mütəşəkkil dəstələrin mütləq və ya zəruri əlaməti kimi çıxış etmir (məsələn, gizli talama əməllərinin törədilməsi üçün mütəşəkkil dəstələrin yaradılması hallarında və s.).

Azərbaycan Respublikası CM-nin 217 və 218-ci maddələrinin sanksiyalarının müqayisəsi banditizm cinayətinin heç də cinayətkar birlik (təşkilat) yaratma cinayətindən az ictimai təhlükəli olmadığı qənaətini çıxarmağa əsas verir. Belə ki, təşkilatlara və ayrı-ayrı şəxslərə basqın etmək məqsədi ilə sabit silahlı qruplar (bandalar) təşkil etmə, belə qruplara (bandalara) rəhbərlik etməyə görə on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən olunmuşsa (CM-nin 217.1-ci maddəsi), ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədi ilə cinayətkar birlik (təşkilat) yaratma, habelə belə birliklərə (təşkilatlara) və ya onların tərkib hissəsi olan struktur bölmələrinə rəhbərlik etmə, həmçinin ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi üçün plan və şərtlərin işlənib hazırlanması məqsədilə mütəşəkkil dəstələrin təşkilatçılarının, rəhbərlərinin və ya sair nümayəndələrin birliyini yaratmaya görə səkkiz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası (CM-nin 218.1-ci maddəsi) müəyyən olunmuşdur. Sanksiyaların belə müəyyən olunması qanunvericinin də bandanı mütəşəkkil dəstə kimi saymamasının təzahürü kimi qiymətləndirilə bilər. Zənn edirik ki, qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar da cinayətkar birliyin (təşkilatın) konkret təzahür formasıdır, bununla yanaşı müəyyən əlavə xüsusiyyətlərə (məsələn, silahlılıq və ya xüsusi məqsədin olması) malikdir. Cinayətkar birlikdə (təşkilatda) silah mütləq əlamət deyildir. CM-də qanunsuz silahlı birləşmələrin yaradılmasında məqsəd göstərilmədiyi halda, cinayətkar birliyin (təşkilatın) ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədi ilə yaradılması təsbit olunmuşdur.

Mütəşəkkil dəstə tərəfindən törədilən cinayətlərdə, o cümlədən, həyat və sağlamlıq əleyhinə cinayətlərdə mütəşəkkilliyin yüksək səviyyəsi onunla müəyyən olunur ki, bu növ qrupun yaradılması momentində gələcək cinayətin ümumi xarakterli olmayan, kifayət qədər detallaşdırılmış hazır modeli mövcud olur. Əlbəttə, mütəşəkkil dəstənin heç də bütün üzvləri həmin cinayətin modelini bütünlüklə təsəvvür etməyə bilərlər, lakin bu model mütəşəkkil dəstənin rəhbər və ya təşkilatçılarının təsəvvüründə hər bir halda mövcud olur. Bununla belə, qabaqcadan əlbir olan bir qrup şəxsdə olduğu kimi bu dəstədə sabitlik əlaməti hələ mövcud olmur. Çünki bu dəstə iki və ya daha çox şəxsin bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşməsini nəzərdə tutur. Sabitlik əlaməti isə hər şeydən əvvəl cinayətkar qrupun daimi mövcudluğunu, daimi cinayətkar fəaliyyəti həyata keçirməsini nəzərdə tutur. Ona görə də mütəşəkkil dəstənin qanunvericilik anlayışında «cinayətkar qrup» sözündən əvvəl gələn «sabit» sözünün yerində olmadığını qeyd edirik və onun «möhkəm» sözü ilə əvəz olunmasını təklif edirik. «Möhkəm» sözü davamlı, bərk, səbatlı mənalarını verir (2, 387) və sabitlik əlaməti ilə müqayisədə mütəşəkkil dəstə üçün daha çox xarakterikdir. Xatırladırıq ki, Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin 20 aprel 1999-cu il tarixli qərarında da «mütəşəkkil dəstə» «möhkəm cinayətkar qrup» kimi izah olunmuşdur. Sabitlik əlaməti isə iştirakçılığın formaları içərisində cinayətkar birliyə (cinayətkar təşkilata) xas spesifik əlamət kimi saxlanılmalıdır.

## ƏDƏBİYYAT


1. Ağır Cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin arxivi: Cinayət işi № A-0884/2004.
2. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. III c. Bakı: Şərq-Qərb, 2006, 672 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, IV c. Bakı: Şərq-Qərb, 2006, 712 s.
4. Azərbaycan Respublikası Ali Məhkəməsinin arxivi: Cinayət işi № 1(102)-111/09.
5. Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülleteni, 2005, №6.
6. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarlar məcmuəsi (1991-2008). Bakı: Hüquq ədəbiyyatı, 2008, 380 s.
7. Azərbaycan Respublikası Apelyasiya Məhkəməsinin arxivi: Cinayət işi № 2 Cİ–347/2007.
8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi qərarlarının toplusu. Bakı: Hüquq ədəbiyyatı, 2008, 936 s.
9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası / h.e.d., prof. F.Y.Səməndərovun redaktəsi ilə. Bakı: Diqesta, 2001, 952 s.
10. Əfəndiyev E.M. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təkmilləşdirilməsi (təkliflər və onların reallaşdırılması əsasları). Bakı: Hüquq ədəbiyyatı, 2010, 552 s.
11. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Ali məktəblər üçün dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2002, 736 s.
12. Козлов А.П. Соучастие: традиции и реальность. СПб.: Юридический центр Пресс, 2001, 362 с.
13. Тихомирова Л.В., Тихомиров М.Ю. Юридическая Энциклопедия. М.: Юринформцентр, 2002, 972 с.
14. Устинова Т.Д. Уголовная ответственность за бандитизм (по новому УК). М.:

Юристъ, 1997, 178 с.
15. Шутелова Т.В. О некоторых проблемах уголовно-правовой характеристики бандитизма // Следователь, 1999, № 6, с. 8-11.

## ВОПРОСЫ КВАЛИФИКАЦИИ ПРЕСТУПЛЕНИЙ ПРОТИВ ЖИЗНИ И ЗДОРОВЬЯ, СОВЕРШЕННЫХ ОРГАНИЗОВАННОЙ ГРУППОЙ

**Н.К.АЛИЕВ**

**РЕЗЮМЕ**

В статье проводится юридический анализ преступлений против жизни и здоровья, совершенных организованной группой. Выявляются проблемы, возникающие при квалификации данных деяний, устанавливаются объективные и субъективные признаки рассматриваемых преступлений на основе изучения судебных материалов, а также выдвигаются предложения для усовершенствования уголовного законодательства.

**Ключевые слова**: организованная группа, группа лиц по предварительному сговору, убийство, квалифицирующий признак, квалификация преступления.

## THE QUALIFICATION OF CRIMES AGAINST LIFE AND HEALTH COMMITTED BY AN ORGANIZED GROUP

**N.K.ALIYEV**

**SUMMARY**

The article provides a legal analysis of crimes against life and health committed by an organized group. Problems arising at the qualification of the aforesaid crimes are studied, their objective and subjective features are analyzed on the bases of the study of judicial materials and suggestions are made to provide criminal jurisdiction.

**Key words**: organized group, preliminary arrangement by group persons, deliberate murder, qualificative signs, qualification of crime